*237/ü nömrəli 02.02.2015-ci il*
***ƏMR***

***«Dövlət Proqramlarının icrası ilə bağlı «Aqrolizinq» ASC üzrə Tədbirlər Planının təsdiq edilməsi barədə»***

Azərbaycan Respublikası Prezidentinin “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı»nın təsdiq edilməsi barədə” 25 avqust 2008-ci il tarixli 3004 nömrəli, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”nın həyata keçirilməsi üzrə Tədbirlər Planı (2011-2015-ci illər)”nın təsdiq edilməsi haqqında” 28 iyun 2011-ci il tarixli 1578 nömrəli, “Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 15 noyabr 2011-ci il tarixli 1836 nömrəli, “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 15 dekabr 2011-ci il tarixli 1890 nömrəli Sərəncamlarının və “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” 22 fevral 2014-cü il tarixli 118 nömrəli Fərmanının icrasını təmin etmək məqsədi ilə

**əmr edirəm:**

1. “2008-2015-ci illərdə Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı”nın, “2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı”nın, “Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı”nın, “2012-2020-ci illərdə Azərbaycan Respublikasında üzümçülüyün inkişafına dair Dövlət Proqramı”nın və “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrası ilə bağlı “Aqrolizinq” ASC tərəfindən 2015-ci ildə icrası nəzərdə tutulan Tədbirlər Planı təsdiq edilsin (əlavə olunur: əlavə 1, 2, 3, 4 və 5).

2. Mərkəzi aparatın aidiyyatı üzrə struktur bölmələrinin rəhbərlərinə tapşırılsın:

- Tədbirlər Planında nəzərdə tutulmuş və “Aqrolizinq” ASC-nin fəaliyyət dairəsinə aid olan tədbirlərin icra qrafikinə uyğun yerinə yetirilməsini təmin etsinlər;

- Tədbirlər Planında nəzərdə tutulmuş işlərin hər rübün yekunları üzrə icra vəziyyəti barədə məlumatları sonrakı ayın 5-nə kimi Cəmiyyətin İqtisadiyyat, maliyyə və mühasibat uçotu şöbəsinə təqdim etsinlər;

3. Tapşırılsın İqtisadiyyat, maliyyə və mühasibat uçotu şöbəsinə (N.Əliyev) Tədbirlər Planında nəzərdə tutulmuş işlərin gedişatı barədə məlumatları ümumiləşdirərək aidiyyati dövlət orqanlarına vaxtında təqdim edilməsini təmin etsin.

4. Ümumi şöbə (E.Hüseynova) bu əmrin surətinin Mərkəzi aparatın struktur bölmələrinə çatdırılmasını təmin etsin.

5. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**İdarə Heyətinin sədri** **Elşən Məmmədov**